AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 4 (1506), 1 - 7 fevral 2022-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə İdman Sarayında tikinti işlərinin gedişi ilə tanış olub.

İkimərtəbəli Gəncə İdman Sarayında böyük idman zalı, üzgüçülük hovuzu, beynəlxalq turnirlərin keçirilməsi üçün məkan, şahmat, güləş, boks və idmanın digər növləri üzrə məktəblər fəaliyyət göstərəcək.

Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının uğurlu icrasını təmin edən əsas məsələlərdən biri infrastruktur layihələrinin tikintisinin gedişi ilə Prezidentin yerində tanış olmasıdır.

Qeyd edək ki, dövlətimizin başçısı 2020-ci il iyunun 24-də Gəncəyə səfəri çərçivəsində bu idman qurğusunda inşaat işlərinin gedişi ilə tanış olub, müvafiq tapşırıqlarını vermişdi. Bundan sonra obyektdə tikinti işlərinin sürəti daha da artmışdır.

## Pekin-2022 Qış Olimpiya Oyunlarının açılış mərasimində Azərbaycanı Baş nazirin müavini Əli Əhmədov təmsil edəcək

Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarının açılış mərasimində Azərbaycanı Baş nazirin müavini Əli Əhmədov təmsil edəcək.

Bu barədə Çin Xarici İşlər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, Çin Prezidenti Si Cinpinin iştirak edəcəyi açılış mərasimindən sonra müxtəlif ölkələrin dövlət və hökumət başçılarının, beynəlxalq qurumların rəhbərlərinin şərəfinə ziyafət veriləcək.

Qeyd olunub ki, Pekin-2022 Qış Olimpiya Oyunlarının açılış mərasimində və digər tədbirlərdə iştirak edəcək nüfuzlu şəxslər arasında Rusiya Prezidenti Vladimir Putin, Kamboca Kralı Norodom Sihamoni, Sinqapur Prezidenti Halima Yakob, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Misir Prezidenti Əbdülfəttah Əs-Sisi, Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud, Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani, Abu-Dabinin vəliəhdi Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan, Polşa Prezidenti Andjey Duda, Serbiya Prezidenti Aleksandr Vuçiç, Monako Şahzadəsi II Albert, Argentina Prezidenti Alberto Fernandes, digər dövlət və hökumət başçıları, eləcə də Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, BMT-nin baş katibi Antonio Quterreş, BMT Baş Assambleyasının sədri Abdulla Şahid, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus və digər yüksək vəzifəli şəxslər var.

Yanvarın 31-də Azərbaycan Xizək İdman Növləri Federasiyasının ümumi yığıncağı keçirilib.

Gənclər və İdman Nazirliyinin inzibati binasında keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Gənclər və idman naziri Fərid Qayıbov çıxış edərək yığıncaq iştirakçılarını salamlayıb, tədbirin işinə uğurlar arzulayıb.

Agentliyinin sədri Fuad Nağıyev Azərbaycan Qış İdman Növləri Federasiyasının yeni prezidenti seçilib.

Federasiyanın yeni prezidenti Fuad Nağıyev çıxış edərək göstərilən etimada görə təşəkkür edib və idmanın bu növünün ölkəmizdə inkişafı üçün səylə çalışacaqlarını bildirib.

Konfransda, həmçinin Florian Zenqstşmid federasiyanın vitse-prezidenti seçilib.

## Azərbaycan Qış İdman Növləri Federasiyası yaradılıb

Azərbaycan Xizək İdman Növləri Federasiyasının prezidenti Rauf Xəlilov qurumun son illərdəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış edib.

Yığıncaqda federasiyanın adında və Nizamnaməsində dəyişikliklər edilib və qurum Azərbaycan Qış İdman Növləri Federasiyası adlandırılıb.

Sonra federasiya rəhbərliyinə seçkilər keçirilib. Azərbaycan Dövlət Turizm Bundan başqa Elvira Zəkərayeva, Nasir Ferhadov, Tomas Eugen Tor Yensen, Daşqın Abbasov və Ruslan Behbudov federasiyanın İdarə Heyətinin üzvü seçiliblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Azərbaycan Qış İdman Növləri Federasiyasının vitse-prezidenti Florian Zenqstşmid çıxış edərək qarşıda duran vəzifələrdən danışıblar.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*







Vladimir Litvintsev:
*“Bayraqdar olmaq ikiqat məsuliyyətdir”*

Səh. 3

Yekaterina Ryabova:
*“Çalışacağam ki, ən yaxşı çıxışımı nümayiş etdirim”*

Səh. 3

**“Ağ olimpiada”nın Çin möcüzəsi**

Səh. 4 - 5

*Azərbaycanın polo komandası dünya kubokunun qalibidir*

Səh. 6

XXIV Qış Olimpiya Oyunlarına

**3 gün qalır**



# Gənclər və idman naziri bir sıra idman federasiyalarının fəaliyyəti ilə tanış olub



Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Yelkənli İdman Federasiyasının fəaliyyəti ilə tanış olub. Gənc idmançılarla görüşən nazir onların dənizdə məşqlərini izləyib. Federasiya prezidenti Qüdrət Qurbanov görülən işlər barədə məlumat verib.

Görüş zamanı görülmüş işlər, idmançıların dünya və Avropa çempionatlarında, beynəlxalq yarışlarda iştirakı və nəticələri barədə təqdimat olub, bu idman növünün inkişafı istiqamətində müzakirələr aparılıb.

Görüşdə nazir müavini Mariana Vasileva və Azərbaycan Milli Avarçəkmə Federasiyasının prezidenti Vüqar Əhmədov da iştirak ediblər.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Kamandan Oxatma Federasiyasının fəaliyyəti ilə tanış olub, yığma komandanın məşq bazası ilə maraqlanıb.

Federasiyanın baş katibi Murad İsfəndiyarov indiyədək görülən işlər və qarşıdakı planlar barədə məlumat verib.

Milli komandanın baş məşqçisi Natiq Fazilov yığma üzvləri barədə məlumat verərək bildirib ki, həftə sonları 30-dək idmançının məşq etdiyi bazanın şəraiti standartlara cavab verməyib üçün komanda üçün daha yaxşı şəraitin yaradılmasına ehtiyac var.

Yeniyetmə və gənc idmançılarla söhbət edən F.Qayıbov onların məşqlərini izləyib və problemləri ilə maraqlanıb. Qeyd olunub ki, hazırda idmançıların əsas hədəfi beşinci İslam Həmrəyliyi Oyunlarına hazırlıqdır.

Görüşdə nazir müavini Mariana Vasileva da iştirak edib.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Kiberidman Federasiyasının fəaliyyəti ilə tanış olub. Federasiyanın prezidenti Ramil Əliyev qurumun əsas mərkəzi olan Nizami kinoteatrında yaradılmış şərait barədə məlumat verərək bildirib ki, burada eyni vaxtda 67 nəfər yarışa qoşula bilir.

2011-ci ildən fəaliyyət göstərən və həmin ildən də beynəlxalq təşkilatın üzvü olan federasiya hər il kiberatletlərin iştirakı ilə kompüter oyunları üzrə milli çempionat keçirir.

Federasiya rəhbərliyi ilə görüş zamanı qarşıdakı planları barədə müzakirələr aparılıb. Fəaliyyətin daha da genişləndirilməsinə dair fikir mübadiləsi olub. İnformasiya Texnologiyaları sahəsində birgə ideya və layihələrin reallaşdırılması tövsiyə edilib və bildirilib ki, xüsusən də regionlarda buna böyük ehtiyac var.

Görüşdə nazir müavini Mariana Vasileva da iştirak edib.

# OCEP çərçivəsində Azərbaycan-Çin mədəniyyət festivalı keçirilib

***"Olimpiya Mədəniyyəti və Təhsil Proqramı" (OCEP) çərçivəsində yanvarın 28-də paytaxtın Nizami rayonundakı şəhid Namiq Həmzəyev adına 238 saylı tam orta məktəbdə Pekin-2022 Qış Olimpiya Oyunlarına həsr olunmuş Azərbaycan-Çin mədəniyyət festivalı keçirilib.***

Mədəniyyət festivalının iştirakçıları - MOK-un Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarında Azərbaycan nümayəndə heyətinin rəhbəri Anar Bağırov, Çinin Azərbaycandakı səfirliyinin nümayəndəsi baş konsulu Ding Tau şəhid Namiq Həmzəyevin məktəbin həyətindəki abidəsi önünə gül dəstələri qoyub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsini dərin ehtiramla yad ediblər.



Məktəbin idmançı şagirdlərinin təqdimatından və Çin mətbəxinin nümunələri ilə tanışlıqdan sonra akt zalında festivalın rəsmi hissəsi keçirilib.

İştirakçıları Azərbaycan və Çin dillərində salamlayan şagirdlər hər iki xalqın mədəni irsini özündə ehtiva edən xüsusi kompozisiyalar nümayiş etdiriblər.

Çinin Azərbaycandakı səfirliyinin baş konsulu Ding Tau çıxış edərək tədbirin təşkilindən və gələcəyimiz olan uşaqların idmana böyük maraq göstərmələrindən məmnunluğunu bildirib.

Tədbirdə MOK-un təşəbbüsü ilə start verilmiş və ölkədə geniş dəstək qazanmış, Olimpiya hərəkatı və onun hörmət, dostluq və mükəmməllik dəyərlərini özündə ehtiva edən OCEP proqramı, Pekin-2022 Qış Olimpiya Oyunları haqqında ətraflı məlumat verilib.

OCEP layihəsinin birinci mövsümündə bu proqrama 100 mindən çox şagirdin və 6 mindən artıq müəllimin cəlb edildiyi, Beynəlxalq Olimpiya Komitəsinin və Avropa Olimpiya Komitələrinin layihənin icrasını böyük rəğbətlə qarşıladıqları qeyd olunub.

Sonra qonaqlara fevralın 4-20-də Pekində keçiriləcək Qış Olimpiya Oyunları, Pekin Olimpiadasının proqramında yer alan idman növləri haqqında məlumat verilib. Olimpiadada Azərbaycanı fiqurlu konki-sürmə yarışlarında Vladimir Litvintsev və Yekaterina Ryabovanın təmsil edəcəkləri bildirilib.

Tədbirdə məktəblilər arasında minihokkey oyunu keçirilib. Həmçinin şagirdlər mahnı və rəqslər ifa edib, şerlər söyləyiblər.

Azərbaycan-Çin mədəniyyət festivalının sonunda məktəblilərə hədiyyələr təqdim olunub.

# "Zəfər" 2021 beynəlxalq idman mükafatlarının təqdimetmə mərasimi keçirilib

Yanvarın 28-də "Fairmont Baku" hotelində 2021-ci ilin yekunlarına əsasən "Sportsman" jurnalının təsis etdiyi "Zəfər" 2021 beynəlxalq idman mükafatlarının təqdimetmə mərasimi keçirilib. Tədbirdə "Sportsman" jurnalının baş redaktoru Rəşad Qəmərşahoğlu, Mətbuat Şurasının sədri Əflatun Amaşov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev, Olimpiya mükafatçıları və idman ictimaiyyətinin digər nümayəndələri iştirak ediblər.




Tədbirdə çıxış edən qonaqlar ötən ilin Azərbaycan idmanı üçün yaddaqalan hadisələrlə zəngin olduğunu qeyd ediblər. Onlar idmançılarımızın Tokio-2020 Yay Olimpiya və Paralimpiya Oyunlarında, MDB Oyunlarında və digər mühüm yarışlarda çıxışlarını və qazanılan nəticələri diqqətə çatdırıblar.

Sonra tədbirdə 17 nominasiya üzrə mükafatlar öz sahiblərinə təqdim edilib.

Qeyd edək ki, mükafatlandırılanlar arasında "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev də yer alıb. Belə ki, M.Fərzəliyev Azərbaycan idmanının təbliğindəki xidmətlərinə görə "Zəfər" 2021 beynəlxalq idman mükafatına layiq görülüb.




***"Zəfər" 2021 beynəlxalq idman mükafatının nominantları:***

1. İlin kişi idmançısı - Rafiq Hüseynov (Tokio-2020-nin bürünc mükafatçısı, dünya çempionu
2. İlin qadın idmançısı - İrina Zaretska (Tokio-2020-nin gümüş mükafatçısı, dünya çempionu)
3. İlin veteran idmançısı - Yalçın Qaralı (WKC növlərində karate-do üzrə dünya və Avropa çempionu)
4. İlin məşqçisi - Qurban Tağıyev (Milli Karate Federasiyasının baş məşqçisi
5. İlin milli komandası - Tokio-2020 Yay Paralimpiya Oyunlarında 19 medal qazanmış yığma komandamız
6. İlin federasiyası - Azərbaycan Gimnastika Federasiyası
7. İlin idman klubu - "Neftçi" İdman Klubu
8. İlin idman butiki - "Wolks sport"
9. İlin futbolçusu - Emin Mahmudov
10. İlin idman jurnalisti - Rövşən Binnətli (İdman Azərbaycan kanalının direktoru)
11. İlin idman jurnalisti - Murat Ekrem Çimen (TRT Sport)
12. İlin idman avtomobili - "Hyundai Elantra"
13. İlin idman saatı - VMF Admiral v4125
14. Azərbaycan idmanının təbliğindəki xidmətlərinə görə - Murad Fərzəliyev (ötən il 20 yaşını qeyd edən "Olimpiya dünyası" qəzetinin baş redaktoru)
15. İdmanın təbliğindəki xidmətlərinə görə - Kaya Muzaffer İlıcak (Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının prezidenti)
16. Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə - Ruslan Məmmədov ("Mario Russo" brendinin rəhbəri)
17. İlin fitness klubu - "Vitr Fitness"

# Gimnastika üzrə ilin ilk yarışı uğurla yekunlaşdı

Yanvarın 29-da Milli Gimnastika Arenasında batut gimnastikası üzrə 6-cı, tamblinq üzrə 18-ci Azərbaycan birinciliyi və Bakı çempionatı keçirilib. Yarışda ümumilikdə batut üzrə 33, tamblinq üzrə 21 idmançı qüvvəsini sınayıb.

Turnirdə idmançılar fərdi proqramda batut üzrə balacalar (2015), uşaqlar (2012-2014), yeniyetmələr (2010-2011), gənclər (2006-2009) və böyüklər (2005-ci il və daha böyük), tamblinq üzrə uşaqlar (2012-2014), yeniyetmələr (2010-2011), gənclər (2006-2009) və böyüklər (2005-ci il və daha böyük) yaş kateqoriyaları üzrə mübarizə aparıblar. Yarış Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi icazəsi ilə ölkəmizdə tətbiq edilən mövcud karantin qaydalarına və sanitar-epidemioloji tələblərə uyğun olaraq və tamaşaçı iştirakı olmadan keçirilib. Qeyd edək ki, ötənilki beynəlxalq yarışlarda olduğu kimi, Azərbaycan birinciliyi və Bakı çempionatında da KİV nümayəndələri onlayn qaydada istədikləri gimnastdan müsahibə almaq imkanı əldə ediblər.

Yarışın yekun nəticələri ilə agf.az saytında tanış ola bilərsiniz.

Qeyd edək ki, ilin ilk 3 ayı ərzində Milli Gimnastika Arenasında müxtəlif gimnastika növləri üzrə daha 3 milli yarış keçiriləcək.

# Atletimiz Almaniyada mükafatçılar sırasında yer aldı

Azərbaycan atleti Nazim Babayev Almaniyanın Karlsrue şəhərində keçirilən "World Indoor Tour" (Gold Level) turnirində gümüş medal qazanıb. Üç təkanla tullanma növündə mübarizə aparan idmançımız 16,76 metr nəticə ilə fəxri kürsünün ikinci pilləsində qərarlaşıb.

N.Babayev Vətən müharibəsində şəhid olmuş hərbçilərin sayını, həmçinin Milli qəhrəmanlar Mübariz İbrahimovla Polad Həşimovun adlarının yazıldığı kağızı əlində tutaraq qələbəsini onlara həsr etdiyini göstərib.




Qeyd edək ki, turnirdə birinci yeri yunanıstanlı atlet Andreas Pantazis (16,79 metr) tutub. Almaniyalı idmançı Maks Hess isə 16,71 metr göstərici ilə yarışda üçüncü yerə sahib çıxıb.





# Vladimir Litvintsev:
## *“Bayraqdar olmaq ikiqat məsuliyyətdir”*



**Adı:** Vladimir
**Soyadı:** Litvintsev
**Təvəllüdü:** 18.02.2001
**İdman növü:** fiqurlu konkisürmə
**Nailiyyətləri:** “İce Mall Cup 2019”da (Eylat, İsrail) I yer , “Volvo Open Cup-2019”da (Riqa, Latviya) III yer, “Mentor Torun Cup-2020”də (Torun, Polşa) I yer, “Lombardia Trpofhy-2021”də (Berqamo, İtaliya) IV yer, “Nebelhorn Trophy-2021”də (Oberstdorf, Almaniya) VI yer, Avropa çempionatında (Tallin, Estoniya, 2022) VIII yer.

Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarına lisenziyanı Almaniyanın Oberstdorf şəhərində olimpiadaya təsnifat xarakteri daşıyan “Nebelhorn Trophy” turnirində altıncı yeri tutmaqla qazanıb.

Vladimir Litvintsev Pekin-2022-də Azərbaycan Olimpiya komandasının bayraqdarıdır.

Bir neçə gündən sonra Çinin paytaxtı Pekində XXIV Qış Olimpiya Oyunlarına start veriləcək. Budəfəki “ağ olimpiada”da 95 ölkədən 4 mindən çox idmançı 15 idman növündə mübarizə aparacaq. Komandamız Qış Olimpiya Oyunlarının yeddinci cəhdində 2 idmançı ilə təmsil olunacaq. Belə ki, Pekində fiqurlu konkisürənlərimiz Vladimir Litvintsev və Yekaterina Ryabova buz üzərinə çıxacaqlar. Oyunlarda komandamızın bayraqdarı Vladimir Litvintsev olacaq. Bu günlərdə Pekinə yollanacaq idmançılarımızla əlaqə saxlayaraq onların yarışa hazırlıq prosessi ilə maraqlandıq. Atletlərimizlə olan eksklüziv müsahibələri oxuculara təqdim edirik.

***- Vladimir, Pekin Olimpiadasında Azərbaycanın bayraqdarı sən olacaqsan. Hansı hissləri keçirirsən?***

- 2018-ci ildən Azərbaycanı beynəlxalq yarışlarda təmsil etməyə başlamışam. Bu ölkəni özümə doğma sayıram. Pekin Olimpiadasında Azərbaycanı yarışlarda bayraqdar kimi təmsil edəcəyəm. Bu barədə qərarı mənə çatdıranda həm həyəcanlandım, həm də böyük qürur hissi keçirdim. Bayraqdar olmaq ikiqat məsuliyyətdir. Bütün diqqətlər sanki sənə tərəf yönəlir. Çalışacağam ki, bu etimadı doğruldum. Yüksək nəticə qazanacağıma inanıram.

***- Yarışlara az vaxt qalıb. Məşq prosesi necə keçir?***

- Məşq prosesimiz yüksək səviyyədə davam edir. Deməki olar ki, günümün əksər hissəsi Moskvadakı “Yantar” İdman Kompleksində keçir. Çalışırıq ki, hər bir xırda məqamları diqqətdən qaçırmayaq. Fiqurlu konkisürmədə hər bir elementin dəqiqliyi bizim üçün əlavə üstünlükdür. Vaxt azaldıqca məşq prosesində daha məsuliyyətli olmağa çalışıram. Yarışqabağı özümü yaxşı hiss edirəm. Ayağımdakı zədənin bərpasına da xüsusi diqqət yetirirəm. Hər bir hərəkətin öhdəsindən layiqincə gəlirəm. Hesab edirəm ki, ayağımdakı ağrılar çıxışıma əks təsir göstərməyəcək.

***- Bu yaxınlarda Tallində Avropa çempionatında iştirak etdin. Yarışdakı çıxışından razı qaldınmı?***

- Tallində keçirilən fiqurlu konkisürmə üzrə Avropa çempionatı mənim üçün əsas hazırlıq hesab oluna bilər. Qitə çempionatında gərgin mübarizə hökm sürdü. Olimpiadada üz-üzə gələcəyim rəqiblərin əksəriyyəti ilə qitə çempionatında yarışmalı oldum. Yekun nəticələrə əsasən 8-ci yerə layiq görüldüm. Bu mənim üçün uğur sayılmalıdır. Zədəli vəziyyətdə belə bir nəticəni qazanmaq asan məsələ deyil.

***- Azərbaycanlı azarkeşlər səndən və Yekaterina Ryabovadan böyük uğur gözləyir. Bunu necə, hiss edirsən?***

- Məşqlərimin gərgin olması ilə əlaqədar sosial şəbəklərdən az istifadə edirəm. Qısa zaman ərzində azərbaycanlı izləyicilərimin sayında artım var. Onların hər biri bizim barədə yüksək fikirdədirlər. Şərhlər bölməsində yazılanlar məni sevindirir. Hər bir yazılan şərhdə məndən uğur gözlədiklərini qeyd edirlər. Bu isə məni daha da ruhlandırır.

Olimpiada böyük bir idman tədbiridir. Hər bir idmançının karyerası ərzində bu mötəbər yarışda öz bacarığını nümayiş etdirmək üçün fürsəti olmur. İstənilən halda bütün qüvvəmi səfərbər edib, maksimum nəticə göstərməyə çalışacağam.

***- Qəzetimizin çoxsaylı oxucuları adından hər ikinizə uğurlar diləyirik.***

- Çox sağ olun.



# Yekaterina Ryabova:
## *“Çalışacağam ki, ən yaxşı çıxışımı nümayiş etdirim”*



**Adı:** Yekaterina
**Soyadı:** Ryabova
**Təvəllüdü:** 27.03.2003
**İdman növü:** fiqurlu konkisürmə
**Nailiyyətləri:** “Minsk Arena İce Star-2018”də (Minsk, Belarus) I yer, “Amber Cup” turnirində (Kaunas, Litva, 2018) VI yer, “Golden Spin” turnirində (Zaqreb, Xorvatiya, 2019) V yer, Lozanna-2020 Yeniyetmələrin Qış Olimpiya Oyunlarında VIII yer, “Budapeşt Trophy” turnirində (Budapeşt, Macarıstan, 2021) IV yer, Denis Tenin xatirəsinə keçirilən turnirdə (Nur-Sultan, Qazaxıstan, 2021) II yer, “Santa Claus Cup-2021”də (Budapeşt, Macarıstan) I yer, Avropa çempionatında (Tallin, Estoniya, 2022) VI yer.

Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarına lisenziyanı Qazaxıstanın paytaxtı Nur-Sultanda Denis Tenin xatirəsinə həsr olunmuş fiqurlu konkisürmə üzrə beynəlxalq turnirdə ikinci yeri tutmaqla qazanıb.

Pekin-2022 Qış Olimpiya Oyunlarının fiqurlu konkisürmə yarışında ölkəmizi təmsil edəcək Yekaterina Ryabova “Olimpiya dünyası” qəzetinə eksklüziv müsahibə verib. Həmin müsahibəni oxuculara təqdim edirik.

***- Yekaterina, istərdik ki, Qış Oyunlarına hazırlıq prosesin barədə məlumat verəsən. Oyunlara hazırlıq səviyyəni necə qiymətləndirirsən.***

- Olimpiya Oyunlarına hazırlıq prosesim yüksək səviyyədə təşkil olunub. Avropa çempionatından sonra bir qədər istirahət etdim. Artıq yenidən məşqlərimi bərpa etmişəm. Bu hazırlıq yarışların başlandığı günə qədər davam edəcək. Düşünürəm ki, çəkdiyim zəhmət öz bəhrəsini verəcək.

***- Sən Lozanna-2020 Yeniyetmələrin Qış Olimpiya Oyunlarında da ölkəmizin idman şərəfini qorumusan. Yəni artıq olimpiadalar baxımdan müəyyən qədər təcrübəyə maliksən.***

- Bəli, Pekin-2022-ni Lozanna-2020-dən sonra mənim üçün növbəti böyük idman tədbiri kimi adlandırmaq olar. Artıq müəyyən qədər təcrübəyə malikəm. Amma bu yarış həmin olimpiadadan bir çox xüsusiyyətlərinə görə fərqlənir. Sözsüz ki, yarışlar çətin olacaq. Amma Pekin-2022 Qış Olimpiya Oyunlarında təmiz çıxış nümayiş etdirmək istəyirəm. Sağlam rəqabət şəraitində ən yüksək nəticəyə nail olmağa çalışacağam. İstəyirəm ki, yarışı seyr edənlərin, eləcə də azarkeşlərin rəğbətini qazanım.

***- Rəqiblərin haqda yəqin ki, məlumatlısan. Bu barədə nə deyə bilərsən?***

- Fiqurlu konkisürmə yarışlarında rəqiblər barəsində fikir söyləmək çox çətin olur. Bunun üçün əvvəlcə çıxışında tələb olunan elementləri mükəmməl yerinə yetirməlisən. Bir sözlə, hər kəsin əldə etdiyi nəticə sonda özünün nəyə qadir olduğunu göstərir.

***- Bu Oyunlarda hansı nəticəni qazanacağına ümid edirsən?***

- Heç vaxt düşündüyüm və qarşıma qoyduğum nəticəni heç kimlə paylaşmıram. Hətta əvvəlcədən iddialı danışmağı da sevmirəm. Çıxışım zamanı yalnız elementlərin səlis yerinə yetirilməsinə köklənirəm. Əgər hər hansı bir fiqurlu konkisürən üzərinə düşən çıxışı mükəmməl yekunlaşdırırsa, yekunda qərarı hakimlər və çoxsaylı tamaşaçılar verir. Nəticələr barədə heçnə deyə bilmərəm. Çalışacağam ki, bütün gücümü ortaya qoyum və özümün ən yaxşı çıxışımı nümayiş etdirim.

***- Zəhmət olmasa, bir qədər də çıxışın barədə məlumat verərdin.***

- Olimpiadada ilk olaraq fevralın 15-də qısa proqramla çıxış edəcəyəm. Çıxışım uğurlu alınacaqsa, mübarizəni təsnifat turnirində davam etdirəcəyəm. Bu isə fevralın 17-nə təsadüf edəcək.

***- Olimpiadadan əvvəl Estoniyanın paytaxtı Tallində keçirilən Avropa çempionatında iştirak etdin. Bu yarışdakı çıxışını uğurlu saymaq olarmı?***

- Bəli, məncə, Tallindəki çıxışımı uğurlu saymaq olar. Baxmayaraq ki, xəstələndiyim üçün yarışda özümü narahat hiss edirdim. Amma belə vəziyyətdə 2020-ci ildə Avstriyada təşkil olunan Avropa çempionatındakı eyni nəticəni təkrarlamaq qənaətbəxşdir.

***- Yarışlarda sənə güc verən əsas amil nədir?***

- Yarışdan əvvəl valideynlərimin, yarış vaxtı məşqçilərimin, eləcə də azarkeşlərin dəstəyi çıxışıma müsbət təsir edir. Hesab edirəm ki, azərbaycanlı azarkeşlər və oraya yollanacaq Azərbaycan nümayəndə heyətinin mənə azarkeşlik etməsi yüksək nəticə qazanmağımda stimul olacaq.

İnanıram ki, uğurlu nəticələrlə mənə inanan hər kəsi sevindirəcəyəm. Bundan başqa sosial şəbəkələrdə azərbaycanlı izləyicilərim mənimlə xoş ünsiyyət qururlar. Bu isə məni daha da həvəsləndirir, əlavə güc verir.



*Anar Əhmədov,*
*Azər Əlizadə*





# “Ağ olimpiada”nın Çin möcüzəsi



## Asiyalılar dünyanı yenidən heyrətləndirə biləcəklərmi?

*Tarixə həm Yay, həm də Qış Olimpiya Oyunlarına ev sahibliyi edən yeganə şəhər kimi düşəcək Pekin bu mötəbər idman yarışına tam hazırdır. Yarışların keçiriləcəyi açıq və qapalı məkanlar, Olimpiya kəndləri, məşq zalları hazır vəziyyətdədir. Ən son texnoloji yeniliklərin tətbiqi ilə həyata keçirilmiş inşaat və quraşdırma işlərini yerli və xarici ekspertlər bir neçə dəfə yoxlayıb, müsbət rəy veriblər.*

*“Olimpiya dünyası” qəzeti bu sayında Pekin-2022 Qış Olimpiya Oyunlarında yarışlara ev sahibliyi edəcək idman qurğuları barəsində məlumatları oxuculara təqdim edir.*

## 14 il əvvəldən yadigar qalan qənimətlər

2008-ci ildə Pekində keçirilmiş Yay Olimpiya Oyunları üçün inşa edilmiş bəzi idman arenalarından Qış Olimpiya Oyunlarında da istifadə olunacaq. Yarışların keçirildiyi məkanlar təşkilatçılar tərəfindən üç klasterə (bölgə) bölünüb. Pekin klasterində Pekin Milli Stadionu, Milli Konkisürmə Stadionu, Pekin Milli Üzgüçülük Kompleksi, Pekin Dövlət İdman Sarayı, “Ukeson” İdman Mərkəzi, Paytaxt İdman Sarayı və “Biq-eyr Şoqen” tramplini yer alıb.

### Pekin Milli Stadionu

2003-cü ilin dekabrında təməli qoyulan stadion 2008-ci ilin mart ayında istifadəyə verilib. İsveçrənin “Hersoq və de Meron” layihə bürosu tərəfindən hazırlanan bu nəhəng idman qurğusu 3,5 milyard (423 milyon dollar) yuana başa gəlib. 2008-ci ildə Pekində keçirilən Yay Olimpiya Oyunları üçün nəzərdə tutulan bu arena 91 min azarkeş tutumuna malikdir. “Quş yuvası” kimi tanınan bu məşhur stadion XXIV Qış Olimpiya Oyunlarının açılış və bağlanış mərasimlərinə ev sahibliyi edəcək.



### Milli Konkisürmə Stadionu

2017-ci ildə təməli qoyulan bu idman qurğusu 2020-ci ilin sonlarında istifadəyə verilib. 2021-ci il oktyabrın 10-da burada yoxlama məqsədi ilə Cənubi Koreya və Niderland idmançılarının iştirakı ilə yarış keçirilib. Arena 12 min azarkeş tutumuna malikdir.

Məlumat üçün bildirək ki, Pekin-2008 Yay Olimpiya Oyunları zamanı bu stadionun ərazisində otüstü hokkey yarışları keçirilmişdi.

### Pekin Milli Üzgüçülük Kompleksi

Pekin Milli Stadionunun yanında yerləşən bu kompleks yay olimpiadası dövründə “Sulu kub” adlanırdı. 2008-ci il yanvarın 28-də rəsmi açılışı olan “Sulu kub” XXIV Qış Olimpiya Oyunları ərəfəsində dəyişdirilərək, “buzlu kub” adlandırılıb. 17 min azarkeş tutumuna malik olan bu idman qurğusunda Qış Olimpiadası dövründə kerlinq yarışları təşkil olunacaq.



### Pekin Dövlət İdman Sarayı

Pekin-2008 Yay Olimpiya Oyunları üçün nəzərdə tutulan bu idman qurğusunun təməli 2005-ci il may ayının 25-də qoyulub. 2007-ci il noyabrın 26-da arenanın təntənəli açılışı olub. Pekin-2008-də idman gimnastikası, batut və həndbol yarışlarına ev sahibliyi edib. Təxminən 18-20 min azarkeş tutumuna malik olan bu idman qurğusunda Qış Olimpiya Oyunlarının kişilər arasında hokkey yarışları keçiriləcək.



### “Ukeson” İdman Mərkəzi

2005-ci ilin martında təməli qoyulan “Ukeson” İdman Mərkəzinin inşası 2008-ci ilin yanvarında başa çatıb. 18 min azarkeş tutumuna malik olan bu idman kompleksi Pekin-2008-də kişilərin və qadınların basketbol yarışlarına ev sahibliyi edib. Qış Olimpiya Oyunları zamanı burada qadınlar arasında hokkey yarışları təşkil olunacaq.



### Paytaxt İdman Sarayı

1968-ci ildə istifadəyə verilən idman sarayı Pekin-2008-də voleybol yarışlarına ev sahibliyi edib. 17 min 345 azarkeş tutumuna malik olan idman qurğusu Pekin-2022 Qış Olimpiya Oyunları zamanı fiqurlu konkisürmə və şort-trek yarışlarına ev sahibliyi edəcək.



### “Biq-eyr Şoqen” tramplini

Bu idman qurğusu məhz Qış Olimpiya Oyunları üçün nəzərdə tutulub. 2018-ci ilin əvvəllərində təməli qoyulan idman obyektinin açılış mərasimi 2019-cu il noyabrın 1-də keçirilib. Uzunluğu 164, eni 34, hündürlüyü isə 60 metr olan bu qurğuda tramplindən tullanma yarışları təşkil olunacaq.



## Böyük Çin Səddinin kölgəsində

Pekin-2022 Qış Olimpiya Oyunlarının keçiriləcəyi yarışlar təkcə paytaxtı əhatə etmir. Belə ki, yarışların digər hissəsi Pekindən 75 km kənarda yerləşən Yançin klasteri ərazisində təşkil olunacaq. Həmin bölgədə Badalin Turizm Mərkəzi yerləşir ki, bu da Böyük Çin Səddinin yaxınlığındadır. Pekin-2022-nin Təşkilat Komitəsi Yançində iki yeni idman qurğusu inşa edib. Bunlardan biri Milli Dağ Xizəyi Mərkəzi, digəri isə Milli Kirşə Bobsley Mərkəzidir.

### Milli Dağ Xizəyi Mərkəzi

Syaoxayto dağ massivində yerləşən bu mərkəz 900 metr hündürlükdə, 7 trasdan ibarətdir. 7 tras isə ümumilikdə 21 km uzunluğu əhatə edir. Bunlardan 3-ü xizək yarışları, 4-ü isə məşq üçün nəzərdə tutulub. Həmin əraziyə qar yağıntısının az düşməsi səbəbindən trasların hər biri süni qarla təchiz olunub. Bu kompleksdə azarkeşlər üçün 5 min oturacaq quraşdırılıb. Bundan başqa 3500 azarkeş isə yarışları ayaq üstə izləmək imkanı əldə edəcək.

Qeyd edək ki, çətin dağ relyefində yerləşən bu mərkəz 2013-cü ilin aprel ayının 28-də istifadəyə verilib.

### Milli Kirşə Bobsley Mərkəzi

Bu mərkəz Çində ilk, Asiyada isə üçüncü ən böyük idman qurğusu sayılır. 10 min (2 min oturaq, 8 min ayaqüstü) azarkeş tutumuna malik olan arenada Qış Olimpiya Oyunlarının bobsley, kirşə idmanı və skeleton yarışları keçiriləcək.



## “Çjan ailəsinin qapısı”ndan Tyanşan dağlarına uzanan yol

Çjançzyakou klasterində Qış Olimpiya Oyunlarının xizək yürüşü, xizək ikinövçülüyü, biatlon, tramplindən tullanma və fristayl yarışları keçiriləcək. Dilimizə tərcümədə “Çjan ailəsinin qapısı” adlanan bu klaster Xuanxe çayının sahilində yerləşir. 2015-ci ildən etibarən Çin hökuməti qərara alıb ki, Qış Olimpiadasının bir neçə yarışları məhz Çjançzyakou klasterində keçirilsin. Burada Milli Xizək, Milli Tramplindən Tullanma, Milli Biatlon mərkəzləri, Gentin Qar Parkı, Tayvu və Vanlun mərkəzləri yerləşir.

*(ardı 5-ci səhifədə)*





# "Ağ olimpiada"nın Çin möcüzəsi

## *Asiyalılar dünyanı yenidən heyrətləndirə biləcəklərmi?*

*(əvvəli 4-cü səhifədə)*

### Milli Xizək Mərkəzi

Çjançzyakou klasterinin Çunli qəsəbəsi demək olar ki, qış idman növləri üçün nəzərdə tutulub. Milli Xizək Mərkəzinin yer aldığı bu məkan 4890 kvadrat metr ərazini əhatə edir. Pekin-2022-də burada xizək yürüşü və xizək ikinövçülüyü yarışları təşkil olunacaq. Ümumilikdə Qış Olimpiya Oyunlarının 12 dəst medalının sahibi məhz bu mərkəzdə müəyyənləşəcək.



### Milli Tramplindən Tullanma Mərkəzi

Mərkəzin dizaynı üst baxışdan qədim Çində "arzuların həyata keçməsi üçün istifadə olunan sehirli çubuğ"u xatırladır. "Qarlı Jui" adlanan kompleksin dizaynı Sinxua Universitetinin dizayner komandasının təqdim etdiyi 200 planın içərisindən seçilib. Tramplin 2 cığırdan ibarətdir. HS140 cığırı 136,2 metr hündürlükdə, HS106 cığırı isə 114,7 metr hündürlükdə yerləşir.

2019-cu ildə istifadəyə verilən bu kompleks Qış Olimpiya Oyunlarına xüsusi rəng qatacaq.



### Milli Biatlon Mərkəzi

Çunli qəsəbəsinin Tayçziçen kəndində yerləşən bu idman qurğusunun təməli 2017-ci ilin mart ayında qoyulub. 5200 kvadrat metr ərazini əhatə edən Biatlon Mərkəzinin 8,7 km məsafəsi dağ relyefinin payına düşür. Biatlon Mərkəzinin panoramında isə Böyük Çin Səddi xüsusi əhəmiyyət kəsb edir.



### Gentin Qar Parkı

2012-ci ilin dekabrın 16-da rəsmi açılışı olan Gentin Qar Parkı Tyanşan dağlarında yerləşir. Bu arena Çunli qəsəbəsinin Tayçziçen kəndində inşa olunub. Parkın ərazisində isə Yundin Xizək Parkı yerləşir. Burada Olimpiya Oyunları zamanı fristayl və snoubordun xafpayp yarışları, eləcə də Qış Paralimpiya Oyunlarının 20 yarışı keçiriləcək.

### Tayvu və Vanlun mərkəzləri

Tayvu Krort Mərkəzi Çjançzyakou klasterinin ərazisində yerləşir. Burada olimpiada zamanı fristayılçılar sloupstayl və ski-kross, snoubordçular isə sloupstayl və snoubord-kross növlərində yarışacaqlar. Hündürlüyü 580 metr olan Vanlun Xizək Mərkəzi də Qış Olimpiya Oyunlarının keçiriləcəyi idman obyektərindən biridir.

Pekin-2022-də mübarizə aparacaq fristayılçılar akrobatika və moqul növlərində, snoubordçular isə paralel məsafələrdə yarışacaqlar.

### Kəndlərdə idmançılara robotlar xidmət edəcək

İdmançıların yarışacağı obyektlərdən danışırıqsa, onların oyunlar zamanı qalacağı Olimpiya kəndi haqqında da məlumat vermək vacibdir. Qeyd etdiyimiz kimi, Çin hökuməti olimpiadaların təşkili üçün 3 klasterdən istifadə edib. Bu klasterlərin hər birində Olimpiya kəndi mövcuddur. Təşkilat Komitəsi idmançıların rahatlığı və vaxt itkisini nəzərə alaraq bu addımı atıb. Məlumat üçün bildirək ki, ümumilikdə üç kəndin ərazisi 330 min kvadrat metri əhatə edir. Çinlilər bu kəndlərdə 20 bina inşa ediblər. Sonradan həmin yaşayış yerləri yerli sakinlərə təklif olunacaq.

Olimpiya kəndlərinin inşası 5 ilə başa gəlib. Təşkilatçılar çalışıblar ki, həmin kəndlər ekoloji cəhətdən insanlara xidmət edə bilsin. Çinlilər düşünürlər ki, bu arzuları həyata keçib. Məsələn, Yançindəki Olimpiya kəndi salındığı vaxt 130 ağac toxunulmadan qalıb. Burada əlavə olaraq 24 min ağac əkilməklə Olimpiya meşəsi yaradılıb. Kəndlərdəki binalar Çin üslubunda inşa olunub ki, idmançılar həmin üslubdan zövq ala bilsinlər. Yançindəki kənd dəniz səviyyəsindən 900 metr hündürlükdədir. Binalardakı korpusların hər biri yüksək dərəcədə isitmə sistemi ilə təchiz edilib. Olimpiada iştirakçıları olan xizəkçilər yarış yerinə kanatla qalxıb, elə xizəklə də qayıda biləcəklər.

Olimpiya kəndlərindəki otaqlar tək və cüt nəfərlik nəzərdə tutulub. Daxildəki isitmə sistemi və digər yeniliklərin hamısı smartfonla idarə



olunacaq. Yataq dəstləri istənilən hündürlüyə qaldırıla bilər. Tokio Olimpiadasında olduğu kimi, burada da çarpayılar kartondan hazırlanıb.

İdmançıların məşq etməsi üçün 27 fitnes, 139 trenajor qurğusu yerəşdirilib. Fitnes mərkəzi karantin qaydalarına əməl edilmək şərtilə 24 saat idmançılara xidmət edəcək. İdmançılar üçün kəndin daxilində bank, kofe və suvenir mağazaları xidmətləri mövcuddur.

Kəndlərdəki klinikalarda idmançılar tibbin 18 xidmətindən, eləcə də cərrahiyədən yararlana biləcəklər. 200 tibb personalının fəaliyyət göstərdiyi klinika gün ərzində 16 saat idmançıların ixtiyarında olacaq. Əgər hər hansı bir idmançının koronavirus testi müsbət çıxarsa, o təcili tibbi yardım avtomobili vasitəsi ilə kənddən kənardakı xəstəxanalara yönləndiriləcək. Bu, təkcə bir idmançını əhatə etməyəcək, onunla təmasda olan idmançılar da nəzarətə götürüləcək. Xüsusi sanitar xidməti isə onların otağını və həmin ərazini dezinfeksiya edəcək.

Kəndin ərazisində robotlar hərəkət edəcək. Onlar tez-tez idmançılara maska taxmağı, gigiyena qaydalarına riayət etməyi və kənar təmasdan uzaq olmağı xatırladacaq. Robotların işi təkcə bununla bitmir. Belə ki, robotlar dezinfeksiya, kuryer xidmətində, bələdçilikdə insanlarla yanaşı, işləyəcək. Hətta onlara kafelərdə də rast gəlmək mümkün olacaq. Bir sözlə, robotlar 3-4 insanın gördüyü işi yerinə yetirəcək.

Təşkilatçılar 4 il Olimpiya menyusu üzərində işləyiblər və yekun nəticədə 678 qidanı müəyyənləşdiriblər. Burada pəhriz, vegeterian və halal qidalar xüsusi nəzərə alınıb. Lakin yeməklərin daxilində istiot və dəfinə yarpağı olmayacaq. Təşkilatçılar düşünür ki, bu ədəvalar dopinq testlərində müsbət nəticə verə bilər. Yeməkxana daxilində də karantin qaydalarına xüsusi riayət ediləcək.






# Azərbaycanın polo komandası dünya kubokunun qalibidir

*İsveçrənin Sankt-Morits şəhərində qarüstü polo üzrə 37-ci dünya kuboku başa çatıb.*



Yanvarın 27-dən start götürən və 6 komandanın iştirak etdiyi nüfuzlu turnirdə ölkəmizi Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Atçılıq Federasiyasının təşkilatçılığı ilə "Land of Fire" komandası təmsil edib.

Komandamızın ilk görüşdəki rəqibi "Perrier Jouet" komandası olub. Oyunda inamlı qələbə qazanmış komandamız 2019-cu ilin qalibi "Badrutts Palace" ilə yarımfinal matçında əzmkarlıq nümayiş etdirərək rəqibini məğlub edib və turnirin həlledici final qarşılaşmasında "Clinique La Prairie" ilə üz-üzə gəlib.

Yanvarın 30-da keçirilən final oyununa rəqib komanda reqlamentə uyğun olaraq yarım xal fərqlə öndə başlayıb. Lakin buna baxmayaraq, "Land Of Fire" komandası prinsipial oyunun bütün komponentlərində rəqibdən üstün olaraq 6-2,5 xal hesabı ilə qələbə qazanıb.

Beləliklə, Azərbaycan poloçuları tarixdə ilk dəfə qarüstü polo üzrə dünya kubokunun sahibi adını qazanıb.

Azərbaycan Respublikasının Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev dövlətimizin rəhbərliyi adından komanda üzvlərini bu qələbə münasibətilə təbrik edib.

Sonda idmançılarımıza turnirin kuboku və xatirə hədiyyələri təqdim olunub.

## *Portuqaliya Qran-Prisi bir gümüş medalla yadda qaldı*

Portuqaliyanın Almada şəhərində cüdo üzrə Qran-pri turniri keçirilib. 41 ölkədən 301 idmançının qüvvəsini sınadığı yarışda Azərbaycan idmançıları da mübarizə aparıblar. Komandamız turniri bir gümüş medalla başa vurub. Yeganə medalı yığmamıza 60 kq çəki dərəcəsində çıxış edən Balabəy Ağayev qazandırıb. Finala qədər bütün rəqiblərinə qalib gələn idmançımız həlledici mərhələdə Cənubi Koreya təmsilçisi Harım Li ilə qarşılaşmada məğlub olaraq gümüş medalla kifayətlənib.



## *Şahmat ictimaiyyəti arasında əməkdaşlıq müzakirə olunub*

Azərbaycan Şahmat Federasiyasının baş katibi İlahə Qədimova Çilinin ölkəmizdəki müvəqqəti işlər vəkili Fidel Koloma Qrimberq ilə görüşüb. Görüşdə hər iki ölkənin şahmat ictimaiyyəti arasında əlaqələrin yaradılması və gələcək əməkdaşlıq istiqamətləri müzakirə olunub. Tərəflər bu əməkdaşlığın faydalı olacağını vurğulayıblar.

Söhbət zamanı, həmçinin Fidel Koloma Qrimberqə ölkəmizdə keçirilən tədbirlər və şahmatçılarımızın beynəlxalq arenada qazandıqları uğurlar barədə məlumat verilib.

## *Qrossmeysterimiz Veyk-an-Zee turnirində ikinci yeri tutdu*

Niderlandın Veyk-an-Zeye şəhərində keçirilən "Tata Steel Chess" turnirinə yekun vurulub. Yarışda ölkəmizi təmsil edən Şəhriyar Məmmədyarov sonuncu turda ABŞ-dan olan Fabiano Karuana ilə üz-üzə gəlib. Ağ fiqurlarla oynayan Ş.Məmmədyarov 13-cü gedişdə heç-heçəyə razılaşıb. Bu nəticədən sonra xallarını 8-ə çatdıran Azərbaycan təmsilçisi yarışı ikinci pillədə başa vurub. Qrossmeysterimiz kimi 8 xal toplayan



macarıstanlı şahmatçı Rixard Rapport üçüncü yeri tutub. 9,5 xala malik norveçli dünya çempionu Maqnus Karlsen isə yarışın qalibi adını qazanıb.

## *Şəhid Əlövsət Tahirovun xatirəsinə stolüstü tennis turniri keçirilib*

Nərimanov rayonunda 258 nömrəli tam orta məktəbdə şəhid Əlövsət Tahirovun xatirəsinə həsr edilmiş stolüstü tennis üzrə Nərimanov rayon turniri keçirilib. Turnirdə 10 komandanın tərkibində 20 nəfər (10 oğlan, 10 qız) mübarizə aparıb.

Yekun nəticələrə görə, 212 nömrəli tam orta məktəbin komandası birinci yeri tutub. İkinci yerə Vətən Müharibəsi Qəhrəmanı Azad Hümbətov adına 291 nömrəli liseyin, üçüncü yerə isə və 258 nömrəli tam orta məktəbin komandaları sahib çıxıb.

## Millimiz "Fəcr" kubokunun qalibi oldu

Urmiyada sərbəst güləş üzrə "Fəcr" kuboku uğrunda yarış keçirilib.

Yeniyetmələr arasında təşkil olunan komanda yarışında millimiz də iştirak edib. Keçirdiyi 22 görüşdən 20-də qələbə qazanan yığmamız 1-ci yeri tutub və kuboka sahib çıxıb. İkinci yeri Xoy, üçüncü yeri isə Naxçıvan komandası tutub.



## Qadın güləşçilərimiz xatirə turnirini 2 medalla başa vurdular

Rusiyanın Krasnoyarsk şəhərində ikiqat Olimpiya çempionu İvan Yarıginin xatirəsinə qadın güləşi üzrə Qran-Pri turniri keçirilib. Yarışda iştirak edən Azərbaycan idmançıları turniri 1 qızıl və 1 bürünc medalla başa vurub.

Komandamıza qızıl medalı Alyona Kolesnik qazandırıb. 59 kq çəki dərəcəsində çıxış edən qadın güləşçimiz əvvəlcə rusiyalı Yuliya Artışkoya, dörddəbir finalda isə Monqolustan təmsilçisi Şovdur Baatarjava qalib gəlib. İdmançımız yarımfinalda rusiyalı Yuliya Alborova üzərində tam üstünlüklə qələbə qazanaraq adını finala yazdırıb.

Həlledici görüşdə isə daha bir rusiyalı Jarqalma Tsırenova üzərində əzmkar qələbə qazanan güləşçimiz fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Bürünc medalı isə yığmamıza Birgül Soltanova (62 kq) qazandırıb. Dörddəbir finalda monqolustanlı Tserençimed Sukxeyə məğlub olan həmyerlimiz rusiyalı Alyona Timofeyevaya qalib gələrək ənənəvi yarışın bürünc medalına sahib olub.

# *Super Liqada birinci dövrə başa çatdı*

Voleybol üzrə qadınlar arasında Azərbaycan Super Liqasında birinci dövrəyə yekun vurulub. İkinci turdan təxirə salınmış ilk qarşılaşmada "Azərreyl" və "Abşeron" komandaları Azərbaycan Voleybol Federasiyasının idman zalında üz-üzə gəliblər. Pandemiya səbəbindən karantin qaydalarına uyğun - azarkeşsiz keçirilən görüşü, həmçinin UNEC - "Murov" oyununu Azərbaycan gənclər və idman naziri Fərid Qayıbov və müavini Mariana Vasileva canlı izləyiblər.

Liderlərin duelində "Abşeron" qələbə qazanıb. İlk setdə 25:19 hesabı ilə qələbə qazanan komanda ikinci hissədə 25:22 hesabı ilə qalib gəlib. "Azərreyl" üçüncü hissədə də məğlubiyyətə üzülüb - 17:25. "Quru hesablı" qələbə "Abşeron"u dövrə qalibi etməklə yanaşı, vahid liderə çevirib.

Ardınca meydana UNEC və "Murov" klubları çıxıblar. Autsayderlərin dueli kifayət qədər maraqlı alınıb. Oyunun tay-brekində 3:2 (28:26, 9:25, 25:15, 16:25, 15:10) hesabı ilə üstün olan UNEC 3-cü yerdəki mövqeyini möhkəmləndirib.

Beləliklə, 3 turdan sonra xal itirməyən və set belə uduzmayan "Abşeron" 9 xala malikdir. Onlardan 3 xal geri qalan "Azərreyl" ikinci olduğu halda, UNEC 2 xalla ilk üçlüyü qapayır. Sonuncu olan "Murov" 1 xala malikdir.



## Plovdivdə uğurlu nəticə

Sablya üzrə milli komandamızın lideri Anna Başta Bolqarıstanın Plovdiv şəhərində keçirilən dünya kuboku turnirinin mərhələ yarışında qızıl medal qazanıb. İdmançımız qadınların şəxsi yarışının finalında fransalı Mannon Brunetə 15:10 hesabı ilə qalib gəlib.



Xatırladaq ki, qadın sablyaçıların şəxsi yarışında mübarizəyə əsas mərhələdən qoşulan A.Başta ilk görüşdə Rusiya təmsilçisi Anastasiya Şorokova (15:9), sonra isə almaniyalı Yulike Funkeni (15:11) mübarizədən kənarlaşdırıb. O, ən güclü səkkizliyə yüksəlmək uğrunda görüşdə Tokio Olimpiadasında məğlub etdiyi amerikalı Enn-Elizabet Stoun üzərində 15:9 hesablı qələbə qazanıb. Sablyaçımız yarımfinala vəsiqə uğrunda qarşılaşmada yaponiyalı Emura Misakini 15:11 hesabı ilə məğlub edib. Yarımfinalda italiyalı Rossella Qreqorioya 15:13 hesabı ilə qalib gələn A.Başta adını finala yazdırıb.

Qeyd edək ki, təsnifatdan 64-lüyə yüksələn Səbinə Kərimova və Sevil Bünyatova qadınların şəxsi yarışında çıxışlarını başa vurublar. S.Kərimova əsas mərhələdə keçirdiyi ilk görüşdə rusiyalı Olqa Nikitinaya (8:15), S.Bünyatova isə qazaxıstanlı Aygerim Saribaya (13:15) uduzublar.

Dünya kubokunun komanda yarışlarında isə Azərbaycan komandası ikinci yeri tutub. Anna Başta, Sevil Bünyatova, Valeriya Bolşakova və Polina Kaspiarovıçdən ibarət kollektiv kubokun mərhələ yarışının finalında Fransa millisinə 39:45 hesabı ilə uduzub.

Yığmamız finala gedən yolda ABŞ (45:39), Macarıstan (45:39) və Bolqarıstanı (45:32) təmsil edən komandalara qalib gəlib.

**Hekayə**



*Mobil İSMAYILOV*

*(əvvəli qəzetimizin 3-cü sayında)*

# Sumoçu qadın

...Sankt-Peterburqdan gələnlər Dinaranı fikrindən döndərə bilməyəcəklərinə əmin olduqdan sonra tədbirin baş tutması üçün bütün variantlara əl atdılar. Əvvəlcə pul məbləği artırıldı. Əlavə həvəsləndirici vədlər verildi. Cəhdlərinin faydasız qaldığını görən İqor və Rəşid Bakıdakı əlaqələrindən istifadə edərək müxtəlif yollarla Dinaraya təsir etməyə başladılar. Nəhayət, görüşün keçirilməsində maraqlı olan yüksək səlahiyyətli idman və federasiya rəsmiləri Dinaranı inadından döndərə bildilər. Yarışdan əvvəl Dinara qaydalara uyğun olaraq mətbuat konfransında televiziya kanallarına müsahibə verərək bildirdi:

- Həyat inanılmaz dərəcədə sürprizlərlə, qəribəliklərlə doludur. Mən yarışlardan ayrılmağa söz vermişdim. Bu günə qədər də əməl edirdim. Budur, yenə qayıtdım. Ancaq media qarşısında, efirdə axırıncı dəfə deyirəm ki, səbirsizliklə gözlədiyiniz döyüş həm də mənim son, vida çıxışımdır.

Kişi idmançı isə nədənsə ənənəni pozaraq, media qarşısına çıxmaqdan və müsahibə verməkdən imtina etdi.

Dinaranın razılıq verməsindən layihə müəllifləri çox məmnun görünürdülər. Yeni reklam vasitələri işə salındı. Satılmamış bir bilet belə qalmadı.

Gözlənilən yarış saatı gəlib çatdı. Adi etika və yazılmamış döyüş qaydalarını pozaraq qadınla rinqə çıxdığına görə Dinarada rəqibinə qarşı nifrət hissi yaranmışdı. Dərhal irəli atılan Dinara şou proqram görüntülərini unudub, rəqibini çətin vəziyyətlərə salmağa başladı. Adətən döyüşə çıxan idmançı sərt davranır, acıqlı görünür. Amma kişi idmançı yorğun, həvəssiz təsir bağışlayırdı. Hərəkətləri də nizamsız idi. O, mübarizə halında olmadığını açıq-aydın büruzə verir və daim hərəkətdə olan qarşısındakı qadının üzünə baxmırdı. Dinara həmin şəxsin daxilində də bir kədər, qayğı sezdi. O, ən azından tamaşaçılara görə rinqdə heç olmasa süni əzmkarlıq cəhdləri, emosional gərginlik görüntüləri belə nümayiş etdirmədi. Qonaq idmançı sanki vaxtın nə vaxt bitəcəyini gözləyirdi. Hər bir halda Dinara asanlıqla rəqibinə qalib gəldi. Əslində belə təsəvvür yarandı ki, kişi idmançı sadəcə döyüşmək istəmədi.

Hakim gənc qadının qələbə çaldığını elan etdikdən sonra Dinara astaca rəqibinə yaxınlaşıb hirsli tərzdə dedi:

- Utanmadınız qadına qarşı rinqə çıxdınız? Bu hərəkətiniz nəinki idman, sumo qaydalarına, həm də əxlaq, şərəf prinsiplərinə ziddir. Özünüzü də alçaltdınız, məni də.

- Zalı tərk etməmişdən əvvəl mənim üçün ayrılmış otağa gəlməyinizi xahiş edirəm, - deyə məğlub olmuş idmançı çətinliklə eşidiləcək səslə cavab verdi.

Dinaranı maraq götürdü. Təntənəli bağlanışdan sonra banket nəzərdə tutulmuşdu. Qalibi birinci təbrik edən İqor oldu.

- Əhsən, Dina! Əfsanə özünü kişi döyüşçü ilə də doğrultdu.

- Beynəlxalq arenada iz qoymuşdun. Bu da yeni imza! - deyə, Rəşid də öz təbrikini bildirdi.

Arvadını qucaqlayıb bağrına basan Ruslan isə heç nə demədi.

Daha sonra Dinara yaranmış fasilədən istifadə edərək qonaq idmançının otağına keçdi. Hər ikisi cangüdənlərinə dəhlizdə gözləməyi tapşırdılar.



- Mənim fantastik vaxtlarım olub. Yəqin ki, bilməmiş deyilsiniz. Amma tale mənimlə sərt rəftar elədi. Səninlə döyüşə razılıq verənə qədər, elə rinqdə də dəfələrlə ölüb-dirildim. Lakin məcbur idim. Çarəsizlik, ehtiyac məni boğurdu. İnamsız mübarizə aparmağımı çox güman ki, hiss etdin. Bəlkə də hamı gördü. Heç əməlli-başlı görüntü də yarada bilmədim. Bacarmadım. Halbuki, kino çəkilişi gedirdi. İki dəfə gözlərimdən əməliyyat keçirmişəm. Görmə qabiliyyətim bərpa olunmayıb. Çox pis görürəm. Əslinə qalsa, bir gözüm sünidir. İndi necə deyərlər, Terminator kimi bir gözümlə görürəm. Düzünü deyim ki, kor kimiyəm. Bir böyrəyim də yoxdur. Üçüncü əməliyyata hazırlaşıram. Söhbətimdə başqa problemlər də var. Sadəcə pula hədsiz ehtiyacım yaranmışdı. Ona görə də bu xoşagəlməz addımı atdım, - deyə, yaxın keçmişin tanınmış idmançısı söhbətə özündən başladı.

- Xoşagəlməz addım yumşaq sözdür. Axı, sənin unudulmaz idman tərcümeyi-halın olub, yaddaşlarda, xatirələrdə qalmışdın. Bu hərəkətinlə bütün keçmişinin üstündən birdəfəlik xətt çəkdin. Ayrı variant tapa bilməzdin?

- Mən heç vaxt qadınla qarşılaşmanı ağlıma belə gətirə bilməzdim. Ümumiyyətlə, qadınların qaydasız döyüşlə məşğul olmasını qəbul etməmişəm. Həyatın ironiyasına bax. Qadınla üz-üzə gəldim. Mənim indiki durumumda kişi ilə rinqə çıxmağıma pul verən tapılmazdı. Qadınla döyüşmək isə yenilikdir, sensassiyadır, qeyri-adi reklamdır. Ona görə də bu təşəbbüsə bir neçə sponsor qoşuldu. Lazım olan məbləğ qısa bir zamanda toplandı. Həm bizə, həm də kino çəkilişinə. Bax, belə! Bağışlayın məni...



Söhbət əsnasında Dinaradan əlavə bir neçə kəskin sözlər eşidən kişi idmançı qəflətən əsəbləşdi.

- Bəs, sən niyə kişi ilə döyüşməyə razılıq verdin? Dəməli, tamah güc gəldi. Yoxsa, ssenaridən də xəbərin yoxdur? Əgər maraqlanmayıbsansa, lap pis. Özü də bayaqdan idmançı şərəfindən, ləyaqətindən danışırsan. Dünya, Avropa çempionu, titullu idmançı, məşhur sumoçu qadın az qala kor vəziyyətində olan kişi ilə niyə rinqə çıxdı? Sənin ki, pula ehtiyacın yox idi. Sumoçu qadına bir bax. Belə çıxır ki, sumonun tarixini dərindən öyrənməmisən. Hərçənd ki, əvvəllər şikəst kişilərin qadınlarla döyüşünə icazə verilib. Həm də səndən fərqli olaraq mən kinonun ssenarisi ilə tanışam. Deyəsən əxlaqsız sumotorilər barədə də məlumatın yoxdur. Acı da olsa deməliyəm ki, əxlaqsız sumotorilər bir-biri ilə qarşılaşmadan savayı əlil kişilərlə də mübarizə apara bilərdilər. Hə, indi, gedib sumonun tarixinə yenidən nəzər salarsan. Əgər həvəsin yoxdursa, kömək edə bilərəm.

Dinaranın halının dəyişdiyini görən qonaq idmançı sakitləşmək əvəzinə kinayəli sözlərinə davam etdi.

- Ya da sən niyə əziyyət çəkib internetdə hansısa ikrah doğuran mənbələri axtarmalısan. Qalib idmançının indi başı qarışıq olacaq. Mənim telefonumda var. Sənin özünün baxmağın yerinə düşər.

Dinaranın rəngi ağarmışdı. Buna baxmayaraq telefonu alıb yazıları oxumağa başladı.

"...Əxlaqsız sumotorilər müştərilərin üstündə bir-biri ilə vuruşa bilərdilər. Özü də sumo qaydaları əsasında. Savaşlar qırmızı fonarlar kvartallarında təşkil olunarmış. Belə qadınlara ancaq kor və əlil kişilərlə mübarizə aparmağa icazə verilirdi. Çünki gözləri görən, sağlam kişilərin qadınlarla bu cür səhnələrdə üz-üzə gəlməsi biabırçı hadisə olmaqla böyük şərəfsizlik hesab edilirdi..."

Birdən Dinara əsməyə başladı və telefonu yerə tulladı. Daha sonra qapını çırpıb ərinin və qonaqların olduğu otağa qaçdı. Ruslan öz qonaqları ilə viski içə-içə şən halda danışıb gülürdülər.

- Sumonun tarixindən xəbərdar olan bir alçaq, əclaf kimi yalnız əxlaqsız qadınların əlil kişilərlə döyüşə girmələri sənə bəlli imiş. Niyə məndən gizlətmisən? Gör, məni nələrə vadar etdin? Arvadını bədnam sumoçuya çevirməyin qalsın bir yana, üstəlik xəstə, şikəst, kor kişi ilə də döyüşdürdün. Məni hərtərəfli rüsvay etdin. Hələ ssenaridə nələr var, bilmirəm, - deyərək Ruslanın üstünə şığıdı və başını, sifətini yumruqlamağa başladı. Bir anın içində qan götürdü ərini. Ruslanın qaşı partladı, burnu sındı. İqorla Rəşid çaşıb qalmışdılar. Bu zaman Dinara İqorun üstünə cumdu və onu yerə sərdi. Dayanmadan əlinə keçən nə varsa, hamısını İqorun başına yağdırdı. Vazadan, kül qabından, şüşə əşyalardan özünü qorumağa macal tapmayan İqorun da başını, sifətini qan bürüdü. Özünü itirən, heç nə anlamayan Rəşid otaqdan çıxıb qaçmaq istərkən, idmançı qadının fənd işlətməsindən sonra üzü üstə yerə yıxıldı. Qalxmasına imkan verməyən Dinara onu da təpikləməyə başladı. Ardıcıl olaraq hər üçünə yönələn yumruq, təpik zərbələri, eləcə də sakitləşməyən qadının otaqdakı gecə çılçıraqlarını, kresloları, hətta mini bar soyuducusunu onlara tərəf tullaması sanki bəzi kino-filmlərdə rast gələnən epizodları xatırladırdı. Səs-küyə içəri daxil olan cangüdənlər və kənar şəxslər Dinaranı güclə saxlaya bildilər...

...Dinara isə içindəki qəzəbi göz yaşları ilə dayandıra bildi. Sumoçu qadın elə göz yaşları ilə də binanı tərk etdi...

# Dünya idmanı





## Nadal “yaşıl qitə”də rekorda imza atıb

Tennis üzrə Avstraliya Açıq çempionatında (Australian Open) kişilərin fərdi mübarizəsində qalibin adına aydınlıq gəlib. Finalda ispaniyalı Rafael Nadalla rusiyalı Daniil Medvedev üz-üzə gəlib. Qarşılaşma R.Nadalın 3:2 (2:6, 6:7, 6:4, 6:4, 7:5) hesablı qələbəsi ilə başa çatıb. İlk iki setdə D.Medvedev qələbə qazansa da növbəti 3 setdə 36 yaşlı raket ustası rəqibinə şans verməyib.

Böyük Dəbilqə seriyalı turnirlərdə 21-ci dəfə çempion olan Rafael Nadal isveçrəli Roje Federer və serbiyalı Novak Cokoviçi geridə qoyaraq yeni rekorda imza atıb.

Qeyd edək ki, qadınların fərdi mübarizəsində qalib adını avstraliyalı Eşli Barti qazanıb. O, iki saatdan çox davam edən turnirin həlledici görüşündə amerikalı Daniel Kollenzə qalib gəlib - 6:3, 7:6 (7:2). Bununla da E.Barti 44 il sonra “Australian Open” turnirində qalib gələn ilk yerli tennisçidir. Sonuncu dəfə bu turnirdə qalib gələn avstraliyalı tennisçi Kris Oneil olub. O, 1978-ci ildə “Australian Open” turnirinin qalibi adını qazanıb.

## *Üçqat Olimpiya çempionu karyerasını başa vurdu*

Akademik avarçəkmə üzrə 3 qat Olimpiya çempionu Hemiş Bond karyerasını başa vurub. Yeni Zelandiyadan olan təcrübəli idmançı 36 yaşında idmanla vidalaşıb. Hemiş Bond 2012-ci ildə London, 2016-cı ildə isə Rio-de-Janeyrodakı Yay Olimpiya Oyunlarında Erik Marreylə birlikdə 2 nəfərlik qayıqla mübarizədə qızıl medal qazanıb. Marreyin karyerasını bitirməsindən sonra H.Bond Tokio-2020-də 8 nəfərlik qayıqla çempion olub. Hemiş Bond həmçinin 8 qat dünya çempionudur.

**olimpnews.az - sizin saytınız**




## *“Kral yürüşləri” Sinqapurda daha 7 il davam edəcək*

Formula 1 Sinqapur Qran-Prisinin təşkilatçısı “Singapore GP Ltd” şirkəti və Sinqapurun Turizm Nazirliyi ilə müqavilənin 2028-ci ilədək uzadılmasını təsdiqləyib. Bu barədə Formula 1-in rəsmi saytında məlumat verilib. Məlumatda qeyd edilib ki, təşkilatçılar növbəti illərdə ekologiyaya xüsusi diqqət yetirəcəklər. Xüsusilə, bu proses zamanı bərpa olunan enerji mənbələrinə və ekoloji cəhətdən təmiz materiallara keçid, eləcə də materialların təkrar emalının həcminin artırılması nəzərdə tutulur.

Formula 1-in prezidenti və baş icraçı direktoru Stefano Domenikali “kral yürüşləri”nin Sinqapurda daha 7 il davam edəcəyindən şad olduğunu bildirib. O, qeyd edib ki, Sinqapurun təqvimdə xüsusi yeri var və şəhər yarışının təşkilatçıları ilə müqavilənin yenilənməsi Asiya qitəsində idmanı inkişaf etdirmək üçün uzunmüddətli planın bir hissəsidir.




## “Sambaçı” müasir futbolun tarixinə düşdü



Braziliya yığmasının qapıçısı Alisson Beker müasir futbol tarixinə düşüb. 30 yaşlı qolkiper VAR sisteminin mövcud olduğu vaxtdan iki dəfə qırmızı vərəqə almasına baxmayaraq, barəsindəki qərarın dəyişdirildiyi ilk oyunçu olub.

Dünya çempionatının Cənubi Amerika zonası üzrə seçmə mərhələsinin XV tur qarşılaşmasında Braziliya səfərdə Ekvadorla heç-heçə edib - 1:1. 31-ci dəqiqədə baş hakim A.Bekerə qırmızı vərəqə göstərsə də, video-təkrara baxdıqdan sonra qərarını ləğv edib.

İkinci dəfə isə referi uzatma dəqiqələrində eyni halı təkrarlayıb.

Bu nəticədən sonra Braziliya millisi 36 xalla 1-ci pillədə qalıb. 24 xala malik Ekvador yığması isə 3-cüdür.

Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci süllh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.